İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, **düşünərək yaşayanlar üçün**, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: ______________________________

Oxu tarixi: ______________________________

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

# SAQQALLI UŞAQ

(hekayələr)

CƏLİL MƏMMƏDQULUZADƏ

parlaq
İMZALAR

| | |
|---|---|
| Baş redaktor: | Toğrul MUSAYEV |
| Korrektor: | Turac ELDARQIZI |
| Tərtibatçı: | Zülfi XƏLİLOV |
| İllüstrator: | Toğrul MƏSTƏLİYEV |
| Art-direktor: | Ramin HƏSƏNƏLİZADƏ |
| Cildin dizayneri: | Ramil ƏLİYEV |

**Cəlil Məmmədquluzadə**
**SAQQALLI UŞAQ** *(hekayələr)*

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2025, 84 səh.

**© Cəlil Məmmədquluzadə / 1905-1936**
**© Parlaq İmzalar MMC / 2025**
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 144
Yoldaş seriyası – Azərbaycan | 1

ISBN 9952580655

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

Mətbəə: "AVE PRİNT" MMC
İYUL / 2025

**Cəlil Məmmədquluzadə** 1869-cu ildə Naxçıvanda anadan olub. İlk təhsilini mədrəsədə alan Cəlil 1882-ci ildə Qori Müəllimlər Seminariyasına daxil olur. Bu seminariya ona yalnız müəllimlik sənəti deyil, həm də zəngin ədəbi dünyagörüşü bəxş edir. 1887-ci ildə oranı bitirən yazıçı bir müddət Azərbaycanda müəllim kimi çalışır.

Ədəbi fəaliyyətinə XIX əsrin sonlarında başlayan Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatında tənqidi realizmin və ictimai satiranın banilərindən biri kimi tanınır. 1889-cu ildə ilk əsəri olan "Çay dəsgahı" alleqorik dramını yazır. Onun 1906-cı ildə Tiflisdə nəşr etdirməyə başladığı "Molla Nəsrəddin" jurnalı təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində azadfikirli düşüncənin tribunasına çevrilir. Jurnal vasitəsilə o, cəhaləti, geriliyi, fanatizmi, riyakarlığı və sosial ədalətsizliyi kəskin satira dili ilə ifşa edirdi. Yazıçının "Poçt qutusu", "Ölülər", "Usta Zeynal", "Anamın kitabı" kimi əsərləri dövrün ruhunu dolğun əks etdirən nadir ədəbi nümunələrdir.

Cəlil Məmmədquluzadə 1932-ci ildə Bakıda vəfat edir. Böyük maarifçi və güclü satirikin əsərləri həmişə öz aktuallığını qoruyub saxlayacaq.

# Mündəricat


Saqqallı uşaq ........................................... 9
Buz ........................................................ 17
Yan tütəyi ............................................... 29
Baqqal Məşədi Rəhim ............................ 41
Poçt qutusu ............................................ 47
Dəllək ..................................................... 59
Sirkə ........................................................ 65
Ucuzluq ................................................... 73
İki alma ................................................... 77

# Saqqallı Uşaq



Bu hekayəni nağıl eləməmişdən qabaq bunu istəyirəm deyəm ki, bir para uşaqlarda belə pis xasiyyət olur ki, əllərinə karandaş düşən kimi başlayırlar evin divarlarını yazmağa. Hələ çoxusu kömürnən də, təbaşirnən də yazır. Hələ sən kömürü və təbaşiri deyirsən, mən elə pis uşaq görmüşəm ki, əlinə mismarı, ya pıçağı alıb, divarları cızıb xarab eləyir.

Nədənsə, divar yazan uşaqlarnan mənim aram yoxdur; ondan ötrü ki, həyə sən yaxşı uşaqsan və könlün məşq eləmək istəyir, götür kağızı-qələmi, bir yerdə otur və nə qədər kefindir, yaz.

İndi keçək nağılımıza.

Mən elə bilirdim ki, bizim uşaqlar özgə uşaqlar kimi o qədər də divar yazan deyillər; çünki çox nəsihət eləmişdim və onlar da mənə söz vermişdilər ki, divarları yazmayacaqlar. Amma axır vaxtlarda gördüm ki, balkonun divarında, qapının dalında bir xəlvət yerdə bir belə şəkil çəkilib: deyəsən, bir heyvan başıdır, qulaqları da

deyəsən var, bir-iki ayağı da var, altında beş dəfə əlif yazılıb və bundan savayı beş-altı yumru şey çəkilib. Bunların hamısı karandaş ilə yazılıb, elə naşı, kobud yazılıb ki, bunu uşaqdan savayı heç kəs yaza bilməz.

Xoşuma gəlmədi, çağırdım uşaqları.

– Ədə, genə divarları yazırsınız?

Üçü də gəldi durdu yazının qabağında.

– Hansınız yazmısınız?

Üçü də dayandı.

– Elədə pəs şeytan yazıb?

– Dədə, vallah, mən yazmamışam.

– Dədə, mən də yazmamışam.

Balaca Qurban da "mən yazmamışam" deyə-deyə əllərini üzünə qoyub başladı ağlamağa.

Mən deyinə-deyinə bir əski tapıb yazını təmizlədim və deyinə-deyinə çəkildim getdim. Amma bunu eşidirdim ki, Heydər Teymura deyirdi:

– Sən yazmısan. – Teymur da Heydərə deyirdi:

– Sən özün yazmısan.

Burada ağlayan oğlum Qurban qaça-qaça gəldi yanıma, guya ki, bir böyük xəbər gətirib.

– Dədə, o yazını Heydər yazıb; vallah, dədə, Heydər yazıb.

Heydər də acıqlı-acıqlı gəldi durdu Qurbanın qabağında və əllərini ata-ata elə hirsnən cavab verdi ki, az qalırdı əllərini soxa uşağın gözünə. Mən acıqlandım və üçü də sakit olub istədilər gedələr, mən onları saxladım və bunu dedim:

– Mən sizdən o qədər divarı yazmağınızdan ötrü incimirəm, nə qədər ki, sizin danmağınıza inciyirəm; sizin qorxudan yalan danışmağınıza inciyirəm. Ona inciyirəm ki, söz yox, divarı yazan üçünüzdən birinizdi; amma üçünüz də and-aman eləyirsiniz ki, siz yazmamısınız. Pəs sizdən savayı bu evdə uşaq ki, yoxdu.

Genə uşaqlarım başladılar and-amana, bir-biri ilə deyişməyə.

Aradan beş-on gün keçmişdi. Haman divarda, qapının dalında, haman davalı cızma-qara pozulan yerdə gördüm genə haman yazı: heyvan kimi bir şeyə oxşayır, altında bir neçə əlif yazılıb, yanında bir neçə yumru yazıya oxşar bir şey çəkilib.

Hirsləndim. Uşaqları çağırdım. Genə haman and və qəsəm, genə bir-birinin üstünə atmaq, genə göz yaşı...

Mən bu dəfə o qədər incidim ki, o günü bidamaq oldum və çörək yeyə bilmədim. Ürəyim ona sıxılırdı ki, üç uşağımın biri başlayıb naxələflik göstərməyə; həmi mənim tərbiyəmi pozub divarı xarab edir, həmi and-aman ilə mənə bu qədər bərk-bərk yalan satır və beləliklə, öz qorxaqlığını açıq-açığına bildirir.

Bu da keçdi getdi və bir-iki aydan sonra bu giley-güzar başladı yaddan çıxmağa.

Amma bir gün mən genə bərk dilxor oldum. Balkondan keçirdim, gördüm divarda genə haman cızma-qara, haman heyvana oxşar bir şey, altında bir neçə əlif, yanında bir neçə yumru-yumru yazılar.

Bu dəfə uşaqlara bir söz dəxi demədim; öz-özümə fikir elədim ki, əgər mənim uşaqlarımın biri inada dü-

şüb məni qəsd ilə incitmək istəyir, qoy burada bir söz deməyim, bəlkə, öz-özünə düşünə ki, bu iş özü hər babətdən pis işdir.

Digər tərəfdən də məni məşğul edən tərbiyə məsələsi idi ki, aya, görək mən uşaqlarıma verdiyim tərbiyənin hansı bir tərəfi yanlış yola düşüb; aya, görək mən kimi bir qoca mürəbbinin səhvi harada olub və bundan sonra uşaqlarım barəsində bəslədiyim rəftarın hansı tərəfinə təğyir[1] verməliyəm...

Böyük şəhərdə yaşamaq çox babətdən rahatçılıqdır. Xüsusən bazar-dükanda cəm olan dünyanın hər bir neməti – yeməli və içməli qəbilindən – hamısı həməvəqt şəhər əhli üçün mühəyyadır.[2] Və bazar-dükandan əlavə heç bir mətah[3] yoxdur ki, onu əllərdə gəzdirməsinlər və sənin öz qapına gətirib satmasınlar; meyvə, pencər, yağ, pendir və qeyriləri.

Bizim də bir müştərimiz var ki, ayda bir, həftədə bir, sağ əlində bir vedrə yağ, sol əlində bir səbət yumurta, çiynində tərəzi, hıqqana-hıqqana pilləkənləri çıxar yuxarı və bizə salam verəndən sonra həmişə belə deyər:

– Qab gətirin.

Ev adamı və uşaqlar və gahdan bir mən özüm də həməvəqt çıxarıq bunun qabağına, salamını alarıq, kefini soruşarıq və sonra gətirdiyi əşyaya tamaşa edib qiymətini xəbər alarıq. Bu da həmişə belə cavab verər:

---

1. Dəyişdirmə, başqa şəklə salma;
2. Hazırdır
3. Qiymətli, nadir tapılan şey, dəyərli

– A kişi, qiymətini bilirsiniz, qab gətirin.

Və bu növ sual-cavabın nəticəsində müştərimiz bizə bir neçə girvənkə[1] yağ çəkib verər, bir qədər yumurta sayıb verər; pulumuz olanda alar, olmayanda da nisyə qoyar gedər ki, bir də yolu düşəndə gəlsin.

Bu kişinin adı Kəblə Əzimdir və yaşı qırx-qırx beş, ucaboy, bir kasıb və fağır İran əhlidir.

Dünən Kəblə Əzim yenə yağ və yumurta gətirmişdi. Yağı çox təriflədi ki, Dərbənd yağıdır, çıxarı çox az olacaq, özü də kəhrəba kimi. Yeyəndə ətrindən doymaq olmayacaq; yumurtaları da guya Qornaşın kəndindən gətirib, oranın toyuqları çəmənlərin otundan və çiçəyindən başqa bir şey yemirlər.

Yağdan beş-altı manat, yumurtadan da genə bir qədər borcumuz qaldı. Çünki o günü xırda pulumuz olmadı (yəni böyük pulumuz da yox idi).

Kəblə Əzim şey-şüyünü götürdü və çıxdı dalana ki, getsin; mən də girdim otağa. Birdən yadıma düşdü ki, Kəblə Əzimə tapşıra idim Ərdəbildən təzəliklə gələn olsa, mənə xəbər versin; Ərdəbil fazili Mirzə Ələkbər ağa barəsində əhval bilmək istəyirdim (çünki Kəblə Əzim özü ərdəbilli idi). Tez çıxdım dalana və gördüm ki, kişi yağı və yumurtanı qoyub yerə, keçib qapının dalına və bir güdək karandaşın ucunu ağzına soxub fikrə gedib. Divarda heyvana oxşar bir cızma-qara çəkilib, altından bir neçə əlif, yanında bir neçə girdə şey. Mən çox təəccüb elədim və əhvalım da birdən nədənsə də-

1. 400 qrama bərabər köhnə ağırlıq ölçüsü

yişildi. Kəblə Əzim mətləbi duydu və mən soruşmamış dedi:

– Molla əmi, doğrusu, mənim dərsim-zadım yoxdu, bu bir yaddaşı yazdım ki, hesablar dolaşmasın.

Mən qəh-qəh çəkib güldüm. Kişi də bir az gülümsündü. Mən bircə bunu soruşdum ki, divara yazdığının mənası nədir?

Mənası bu imiş: Kəblə Əzim istəyirmiş bir inək çəkə və inəyin altında yazdığı beş cızığın mənası bu imiş ki, mən ona beş manat inək yağından borclu qaldım. Girdə yazılar da yumurtadan qalan borcumun hesabı imiş. Mən genə güldüm və uşaqlarımı çağırdım və onlara belə dedim:

– Uşaqlarım, uşaqlarım, gəlin, bura gəlin!

Uşaqlar doluşdular və gözləri divara sataşan kimi çox-çox təəccüb elədilər və məndən soruşmağa başladılar:

– Dədə, bunu kim yazıb?

Dedim:

– Balalarım, bu yazını yazan da sizin kimi uşaq idi; ancaq bircə təfavütünüz oradadır ki, onun saqqalı var, sizin hələ saqqalınız yoxdur.

Uşaqlar çox gülüşdülər və məlum ki, bunların gülüşüb şad olmaqlarına böyük bir səbəb var idi ki, hər bir oxucuya aşikar olsun gərək.